**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

*№1* *Humanitar elmlər seriyası* *2010*

# AZƏRBAYCAN – ŞƏRQİ AVROPA MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA ALİ MƏKTƏBLƏRARASI ƏMƏKDAŞLIĞIN ROLU
## (BSU, Milli Aviasiya Akademiyası və s. timsalında)*

**H.N.MƏMMƏDOV**
***Bakı Slavyan Universiteti***
***habil@mail.ru***

*Azərbaycan – Şərqi Avropa ali məktəblərarası əməkdaşlıq Avroatlantik elm və təhsil məkanında universitetlərimizin müsbət imicinin formalaşmasına nail olmağa, orada gedən inteqrasiya proseslərini izləməyə və onlara məqsədyönlü şəkildə qatılmağa imkan yaradır.*

Azərbaycanın Şərqi Avropa ölkələri ilə mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlığının genişlənməsində Bakı Slavyan Universiteti (BSU) mühüm rol oynayır. "Bakı Slavyan Universiteti Avropanın Azərbaycanla və Azərbaycanın Avropa ilə yaxınlaşmasına kömək edən möhkəm mənəvi və intellektual körpu sayılır" [1, 4].

Bakı Slavyan Universiteti Şərqi Avropanın Rusiya, Ukrayna, Belarus, Moldova, Polşa, Bolqarıstan və Rumıniyanın bir sıra aparıcı universitetləri ilə ali məktəblərarası sazişlər çərçivəsində beynəlxalq əməkdaşlıq telləri qurmuşdur. Universitetin beynəlxalq münasibətlər və regionşünaslıq, həmçinin tərcümə fakültələrində Şərqi Avropa ölkələri üzrə mütəxəssis hazırlığına xüsusi diqqət yetirilir. BSU tez bir zamanda adi ali tədris müəssisəsindən slavyan mədəni dəyərlərini öyrənən mərkəzə - «Slavyaşünaslıq» elmi-tədris mərkəzinə çevrilmişdir. Hal-hazırda burada Rusiya tədris mədəniyyət mərkəzi («Moskva auditoriyası»), «Ukrayna tədris - mədəniyyət mərkəzi», «Sankt-Peterburq» mədəniyyət və tədris mərkəzi, «Bolqar dili və mədəniyyəti mərkəzi», «Polyak dili və mədəniyyəti mərkəzi» və s. kimi elmi-tədqiqat və mədəni-tədris mərkəzləri fəaliyyət göstərərək mənəvi dəyərlərin qarşılıqlı mübadilə olunmasında böyük əhəmiyyət kəsb edirlər. Bakı Slavyan Universitetinin rəhbərliyi Şərqi Avropa ölkələrinin universitetlərində «Azərbaycanşünaslıq» mərkəzlərinin açılması və geniş fəaliyyət göstərməsi istiqamətində ciddi və ardıcıl addımlar ataraq bu sahədə bir sıra uğurlar qazanmışdır. Universitet həmçinin «Regionşünaslıq», «Filologiya», «Pedaqogika» və «Beynəlxalq münasibətlər» istiqamətində Avropanın bir sıra mədəni, elm və təhsil qurumlarına üzvlüyə qəbul edilmişdir. Əməkdaşlıq universitetlər arasında imzalanmış müqavilələr və sazişlər əsasında həyata keçirilir. Belə ki, BSU Rusiyanın A.S.Puşkin adına Dövlət Rus dili İnstitutu (12.03.2001), Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutu (Universiteti) (26.11.2001), Rusiya Elmlər Akademiyası Dilçilik İnstitutu (05.02.2002), Moskva Dövlət Linqvistik Universiteti (23.05.2005), S.Yesenin adına Ryazan Dövlət Pedaqoji Uni-

* Bax: Məqalənin əvvəli – Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası). №4, 2009, s.90-96

versiteti (30.10.2006), Moskva şəhər Redaqoji Universiteti (23.11.2007), Smolnı Universiteti (10.11.2004) və s.; Ukraynanın Kiyev «Slavyan Universiteti» (20.12.2000), T.Şevçenko adına Kiyev Milli Universiteti (23.03.2000), Regionlararası Heyətin İdarə-edilməsi Akademiyası (01.09.2000), Beynəlxalq Kadrlar Akademiyası (01.09.2000), B.Xmelnitski adına Çerkassk Milli Universiteti (23.11.2007- 23.11.2012); Polşanın Varşava Universiteti (16.12.2003), Adam Miskeviç ad. Poznan Universiteti (17.07.2006); Belarusun M.Tank adına Belarus Dövlət Pedaqoji Universiteti (29.12.2004); Bolqarıstanın Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti (10.10.2002), Yepiskop Konstantin Preslavski adına Şumen Universiteti (31.10.2001), Milli və Dünya Təsərrüfat Universiteti (03.06.2009); Moldova Respublikasının Slavyan Universiteti (09.10.2006) və digər ali təhsil ocaqları ilə ikitərəfli əməkdaşlıq müqavilələri əsasında əməkdaşlıq edir [1, 75; 2; 3; 10, 245-257; 11, 169-173]. Həmin müqavilələr, sazişlər, protokollar müəllim və tələbə mübadiləsini, birgə elmi tədqiqatların, konfransların, simpoziumların və seminarların həyata keçirilməsini, müəllimlərin ixtisaslarının artırılmasını, informasiyaların və elmi-metodiki ədəbiyyatların mübadiləsini və s. sahələri əhatə edir. BSU həmçinin bir sıra beynəlxalq təşkilatların, o cümlədən Qara Dəniz Hövzəsi Universitetləri Assosiasiyasının, Rus Dili və Ədəbiyyatı Müəllimlərinin Beynəlxalq Assosiasiyasının, «Regionşünaslıq» və «Beynəlxalq münasibətlər» istiqamətləri üzrə Rusiya Federasiyası Ali məktəbləri tədris – metodik birliklərinin üzvüdür.

Universitetin rəsmi qonağı olmuş bir çox tanınmış dövlət və ictimai-siyasi xadimlər, o cümlədən Rusiya Federasiyasının prezidenti V.V.Putin, və bütün Rusun Patriarxı Müqəddəs II Aleksey, Bolqarıstanın prezilenti G.Pirvanov Ukrayna Prezidenti Viktor Yuşşenko, Polşa Prezidenti Yan Kaçinski və digərləri Bakı Slavyan Universitetiinin Fəxri doktoru dirlomuna layiq görülmüşlər.

BSU-da 2000-ci ildə yaradılmış «Səfir saatı» klubu fəaliyyət götsərir ki, burada həm də Şərqi Avropa ölkələrinin səfirləri, səfirliklərinin digər nümayəndələri təmsil etdikləri xalqların mədəniyyəti, tarixi, iqtisadiyyatı, siyasi sistemi və digər mövzulara aid məruzələrlə çıxış edirlər.

2008-ci ilin fevralın 21-də Azərbaycan Respublikası prezidenti İ.Əliyev Moskvada rəsmi səfərdə olarkən, ona MDU-nun fəxri professoru diplomunu təqdimetmə mərasimində ölkələrimizin mədəniyyət və təhsil sahələrində əməkdaşlığından bəhs edərkən Bakı Slavyan Universitetinin fəaliyyətinə xüsusi diqqət yetirmişdir: «Bakı Slavyan Universitetində rus dili və ədəbiyyatı ilə yanaşı, bütün slavyan ölkələrinin dil və mədəniyyəti öyrənilir və tədris edilir. Bu da ikitərəfli münasibətlərin və ümumən, Azərbaycanın siyasi xəttinin mühüm elementidir» [5].

Regionlararası Kadrların İdarə edilməsi Akademiyasının nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Siyasi və Sosial Elmlər İnstitutu 2000-ci ilin avqustunda yaradılmışdır. Hal-hazırda bu ali təhsil müəssisəsində 1600-dən artıq tələbə təhsil alır. İnstitutda 7 kafedra — ümumi va praktiki psixologiya, tibbi psixologiya və psixokorreksiya, sosiologiya, sosial iş və sosial pedaqogika, sosial psixologiya, fəlsəfə, Ukrayna pravoslavlığı və ilahiyyat kafedraları fəaliyyət göstərir. Kafedralarda yüksəkixtisaslı mütəxəssislər hazırlamaq qabiliyyətində olan və psixologiya, sosiologiya, sosial psixologiya sahəsində müasir tələblərə cavab verən elmi tədqiqat işləri aparan yüksək elmi biliklərə malik elmi-pedaqoji kollektiv cəmləşmişdir. Heydər Əliyev adına Siyasi və Sosial Elmlər İnstitutunun pedaqoji kollektivi tədris prosesinin təkmilləşdirilməsi məqsədilə son 3 il ərzində 150 adda müxtəlif elmi-praktiki və elmi-

metodoloji əsərlər yazmış, 40-a yaxın dərslik hazırlamışdır. 2005-ci ilin fevralında İnstitutda Psixoloji diaqnostika və konsultasiya mərkəzi yaradılmışdır. Mərkəzin fəaliyyətinin əsas məqsədi psixoloq-tələbələrin peşəkar yüksəlişi üçün təkan verməkdir [6].

2001-2002-ci tədris ilində Bakı Slavyan Universitetinin 10 əlaçı tələbəsi ilk dəfə Təhsil Nazirliyinin xətti ilə bu instituta qəbul olunmuşdur. Dövlət xətti ilə 2002-2003-cü tədris ilində Kiyev şəhərindəki Heydər Əliyev adına Siyasi və Sosial İnstituta 10, 2003-2004-cü tədris ilində 5 və 2004-2005-ci tədris ilində 1 tələbə, beləliklə, 26 tələbə təhsil almaq üçün göndərilmişdir. Hazırda akademiya statusu almış bu təhsil ocağında 19 Azərbaycan vətəndaşı təhsilini bakalavr, magistratura va aspiranturada davam etdirir. MAUP-un Azərbaycan mərkəzinin tələbələri hər iki ölkənin ən yaxşı ali məktəb proqramları əsasında təhsil alırlar. Burada onlara ən savadlı müəllimlər, professorlar, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvləri dərs deyirlər. Mərkəzdə tələbələr "Tikinti menecmenti", "Tərcümə", "Sosial pedaqogika", "Politologiya", "Psixologiya", "Beynəlxalq iqtisadiyyat və maliyyə" ixtisasları üzrə bakalavr təhsili alırlar. İnstitutun elmi həyatı öz rəngarəngliyi ilə seçilir və aylıq "İctimaiyyatçı" jurnalında əksini tapır.

2007-ci il fevralın 9-da Heydər Əliyev adına Siyasi və Sosial Elmlər İnstitutunda qiyabi formada təhsil alan magistrlərin Regionlararası Kadrların İdarə edilməsi Akademiyasında təntənəli buraxılışı keçirilmişdir. "Psixologiya", "Sosiologiya", "Sosial iş" və "Sosial pedaqogika" ixtisasları üzrə 66 tələbə diplom almışdır ki, onlardan 25-i institutu fərqlənmə ilə bitirmişdir. İyulun 14-də isə Kiyevdə Regionlararası Kadrların İdarə edilməsi Akademiyası (HİOBA) nəzdində Heydər Əliyev adına Ukrayna-Azərbaycan Sosial Elmlər və Beynəlxalq Münasibətlər İnstitutunun akt salonunda 7 azərbaycanlı tələbəyə bakalavr (o cümlədən fərqlənmə) diplomlarının təntənəli təqdim edilməsi mərasimi keçirilmişdir [7].

2004-cü il iyulun 13-də fəaliyyətə başlayan və 2008-ci ilə qədər fəaliyyət göstərən Dnepropetrovsk Milli Universitetinin Bakı filialı bu dostluq və qarşılıqlı mədəni əməkdaşlığın bariz nümunəsidir [8].

Ukraynanın ən qədim və məşhur universitetlərindən biri olan T.Şevçenko adına Kiyev Milli Universiteti Azərbaycan-Ukrayna mədəni əməkdaşlığında özünəməxsus yerə malikdir. Belə ki, T.Şevçenko adına Kiyev Milli Universiteti ilə Azərbaycan universitetləri arasında əməkdaşlıq haqqında razılaşmalar mövcuddur və qarşılıqlı tələbə mübadiləsi həyata keçirilir. hətta bu universitetin şərqşünaslıq fakültəsində 2002-2003-cü tədris ilindən etibarən "Azərbaycan dili və ədəbiyyatı" ixtisası tədris olunur. Azərbaycan Respublikası Təhsil Nazirliyi bu ixtisasın tədris olunması üçün universiteti müəyyən dərs vəsaiti, digər proqram və tədris materialları ilə təmin etmişdir. Azərbaycan Respublikasının Ukraynadakı səfirliyinin nümayəndələri tez-tez T.Şevçenko adına Kiyev Milli Universitetində "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə təhsil alan tələbələrlə görüşlər keçirir. Belə ki, 2002-ci ilin oktyabrında ölkəmizin Ukraynadakı səfirliyində universitetin "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə təhsil alan tələbələri ilə görüş keçirilib. Səfir Tələt Əliyev universitetdə Azərbaycan dili və ədəbiyyatı ixtisasını tədris etdiklərinə görə KMU-nun rektoruna təşəkkürünü bildirib və bunu Azərbaycan-Ukrayna qardaşlıq münasibətlərinin inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə konkret töhfə adlandırıb. Tələbələr öz seçimlərini Füzuli və Vaqifin dilinə böyük məhəbbət, Azərbaycana, onun xalqına rəğbət

başlamaları ilə əsaslandırıblar. Onların hər birinə ayda 100 qrivna (20 ABŞ dolları məbləğində təqaüd təyin edilib [9, 16].

Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycan Respublikasının Prezident İlham Əliyev və Azərbaycan Respublikası Milli Məclisinin eks-spikeri Murtuz Ələsgərov Azərbaycan-Ukrayna əlaqələrinin inkişafında gördükləri işlərə görə T.Şevçenko adına Kiyev Milli Universitetinin fəxri doktoru adına layiq görülmüşlər.

24 sentyabr 2008-ci ildə Azərbaycanın Milli Aviasiya Akademiyası və Ukraynanın Milli Aviasiya Universiteti arasında əməkdaşlıq sazişi imzalanmışdır. Azərbaycan tərəfindən sazişi Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Paşayev, Ukrayna tərəfindən isə Milli Aviasiya Universitetinin rektoru, professor Nikolay Kulik imzalamışlar. Saziş hər iki ölkənin ali təhsil müəssisələrində əməkdaşlığın inkişafı və dərinləşdirilməsi, elmi-texniki irəliləyiş istiqamətində vəzifələrin həlli, tədris, tədris-metodiki və elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılması məqsədilə imzalanmışdır.

2005-ci il mayın 18-də Poltava İstehlak Kooperasiyası Universitetində "Bolonya prosesi çərçivəsində Ukrayna-Azərbaycan təhsil əlaqələri" mövzusunda dəyirmi masa keçirildi.

Bu tədbir Poltava vilayətinin dövlət administrasiyası, şəhər rəhbəri A.O.Boykonun dəstəyi ilə keçirilmiş və Poltava İstehlak Kooperasiyası Universitetində Azərbaycandan olan tələbələrin təhsillərini başa vurmalarına həsr edilmişdir. MDB ölkələri istehlak kooperasiyası ali təhsil müəssisələri rektorları şurasının 2004-2005-ci il iş planına və Azərbaycan Kooperasiya Universiteti və Poltava İstehlak Kooperasiyası Universiteti arasında 2005-ci il 21 may müqaviləsinə müvafiq olaraq PİKU-da Azərbaycan universitetinin 10 tələbəsi təhsil alırdı. Onlar fərdi tədris planları əsasında "Maliyyə", "Maliyyə uçotu və audit", "Beynəlxalq iqtisadiyyat" və "Marketinq" ixtisasları üzrə təhsil alırdılar.

Rumıniya Respublikasında səfirliyimiz tərəfindən görülən tədbirlər nəticəsində Buxarest Texniki-İnşaat Universitetində təhsildə və davranışda ən yüksək göstəriciləri olan dörd tələbə üçün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev təqaüdünün təsis olunmasına dair Rumıniya hökumətinin razılığı ilə qərar qəbul edilmişdir. 2004-cü ildən Rumıniyanın Ployeşt Neft-Qaz Universitetində də üç əlaçı tələbə üçün Heydər Əliyev təqaüdü təsis olunmuşdur. Beləliklə, birgə səylər nəticəsində bu gün Rumıniyanın iki universitetində yeddi əlaçı tələbə hər ay Heydər Əliyev təqaüdü alır [12].

26 May – 01 iyun 2008-ci il tarixlərində Xəzər Universitəsinin rektoru professor Hamlet İsaxanlı və rəhbərlik etdiyi nümayəndə heyəti Avropa Türk və Qafqaz Xalqları Assosiasiyasının (ATQXA) dəvəti ilə Estoniya Respublikasında olmuş, Estoniya AvroUniversitəsində "Sivilizasiyaların dialoqu: Şərq-Qərb qloballaşma prosesində" beynəlxalq elmi konfransda iştirak etmişlər. H.İsaxanlı "Qloballaşma, innovasiya və müasir dünayda ali təhsil" mövzusunda maraqlı çıxış etmiş, Beynəlxalq elmi konfransdan sonra "Estoniya radiosu-4"ə müsahibə vermişdir. Estoniya AvroUniversitəsinin rektoru akademik Yuri Martin Xəzər Universitəsinin rektoru prof. Hamlet İsaxanlının "AvroUniversitəsinin Fəxri Doktoru" adına layiq görülməsi haqqında diplomu ona təqdim etdi [13].

2009-cu ilin fevralında Bakıda MDU-nun filialının açılması xalqlarımız arasında mədəni əlaqələrin inkişafında mühüm hadisə oldu. 12 mart 2009-cu ildə Gəncə Dövlət və Latviya Rezenqin universitetləri arasında tele-körpü təşkil edilmişdir.

2009-cu ilin aprelində Moskva Dövlət Linqvistika Universitetində "Azərbaycan dili və mədəniyyəti mərkəzi" açıldı.

Beləliklə, yuxarıda qeyd edilənlər Azərbaycan və Şərqi Avropa xalqlarının yaxınlaşmasında və mədəni əlaqələrinin inkişafında, dillərimizin, mədəniyyətlərimizin qarşılıqlı təbliğində ali məktəblərarası əməkdaşlığın böyük rol oynadığını göstərir.

## ƏDƏBİYYAT


1. Bakı Slavyan Universiteti. Бакинский Славянский Университет. Bakı: Baku Slavic University. Bakı: BSU, 2009, 132 s.
2. Bakı Slavyan Universitetinin beynəlxalq əlaqələr şöbəsinin cari arxivi. 2000-2008.
3. Varşava Universiteti ilə əlaqələr genişlənir // BSU-nun Elmi Əsərləri, 2005, № 1-2, s.169-170.
4. http://www.mfa.gov.az/
5. Azərbaycan Prezidenti İlham Əliyevə Moskva Dövlət Universitetinin fəxri pofessoru adı verilmişdir. "Azərbaycan" qəz., Bakı, 2008, 22 fevral.
6. http:www.maup.com.ua.news/ news.php?idn=395.
7. Heydər Əliyev adına Sosial Elmlər İnstitutunun fəaliyyət göstərdiyi Ukrayna Regionlararası Heyəti İdarəetmə Akademiyasının iyirmi yaşı tamam olub. «Azərbaycan müəllimi» qəz., Bakı, 2009, 10 aprel .
8. Бакинский филиал. Газета «Вісник», квітень, 2006.
9. Мамедзаде Н.С. Взаимоотношения Азербайджанской Республики со славянскими странами СНГ и Восточной Европы. Баку: Azərnəşr, 2006, 145 s.
10. Məmmədov H.N. Bolqarıstan tarixi. Dərslik. Bakı: Elm və təhsil, 2009, 272 s.
11. Məmmədov H.N. Ukraynanın müasir tarixi (XX əsrin sonları – XXI əsrin əvvəlləri). Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2009,180 s.
12. S.İbrahimqızı. Rumıniyanın təhsil sistemi. "Üç nöqtə" qəz., Bakı, 2005, 13 avqust.
13. Xəzər Universitetinin prezidenti, professor H.İsaxanlı Estoniya Avrouniversitetinin fəxri doktoru diplomuna layiq görüldü. «Azərbaycan müəllimi», Bakı, 2008, 15 iyun.


## РОЛЬ МЕЖВУЗОВСКОГО СОТРУДНИЧЕСТВА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНО - ВОСТОЧНОЕВРОПЕЙСКИХ КУЛЬТУРНЫХ СВЯЗЕЙ
**(на примере БСУ, Национальной Академии Авиации и др.)**


**Г.Н.МАМЕДОВ**


### РЕЗЮМЕ


Бакинский Славянский Университет, Национальная Академия Авиации, Бакинский филиал МГУ им. М.Ломоносова и другие вузы Азербайджана осуществляют двустороннее сотрудничество с ведущими университетами России (Московский государственный институт (университет) международных отношений, Государственный институт русского языка им. А.С.Пушкина, и т.д.), Украины (Институт социальных наук им. Гейдара Алиева, Киевский национальный университет им. Т.Шевченко, Национальный университет авиации и т.д.), Белоруссии (Белорусский государственный педагогический университет им. М.Танка), Польши (Варшавский университет, Познанский университет им.А.Мицкевича и т.д.), Болгарии (Софийский университет им.св.Климента Охридского, Шуменский университет имени епископа Константина Преславског), Молдовы (Славянский университет Молдавской Республики) и др.

**THE ROLE OF INTERUNIVERSITY COOPERATION IN THE DEVELOPMENT OF AZERBAIJAN – EASTERN EUROPEAN CULTURAL RELATİONS**
**(on the example of BSU, National Academy of Aviation, etc.)**

**H.N.MAMMADOV**

**SUMMARY**

Baku Slavic University, National Academy of Aviation, Baku branch of Moscow State University and other high schools of Azerbaijan carry out bilateral cooperation with leading universities of Russia (Moscow State İnstitute (University) of İnternational Relations, State İnstitute of the Russian Language after A.S.Pushkin; Moscow State Linguistic University, etc.), Ukraine (İnstitute of Social Sciences named after Heydar Aliyev, Kiev National University named after T.Shevchenko; National University of Aviation, etc.), Belarussia (Belorusian State Pedagogical University named after M.Tank), Poland (Warsaw University Poznan university named after A.Mitskevich, etc.), Bulgaria (Sofia University named after St.Clement Ohridsky, Shumen University named after BishopKonstantin Preslavsky), Moldova (Slavic University of the Moldavian Republic), etc.